# Kim nə deyər bizdə olan Sabirə?!

*Cavid ZEYNALLI*
cavid54@mail.ru

Deyirlər, böyük insanlar haqqında yazmaq çətindir. Başa düşürəm, çətin olmaqla bərabər həm də məsuliyyətli işdir. Amma lütfən, icazə verin, xofu və hürküsü adamı uzaqdan vuran, daha doğrusu, qarabasma qədər vahiməli olan bu gəlişigözəl sözlərin mənim üçün Bakıdan Şamaxıya qədər uzaq olduğunu bəri başdan nəzərinizə çatdırım. Bir az böyük çıxdı hə? Amma nə edim ki, M.Ə.Sabir və onun xatirəsinə həsr olunan poeziya günündən yazmaq üçün böyük sevgi və saygı üstündə köklənib də, küncüt toxumu boyda çətinlik və faciəvi məsuliyyət-filan hiss eləmirəm.

Bu mənim Sabir haqqında üçüncü yazımdır. Əvvəlki ikisini orta məktəb illərində qiymət almaq, evdəki " hesabatlardan" üzüağ çıxmaq xətrinə sinfimizin yaxşı oxuyanlarından böyük məharətlə köçürmüşəm. Düzünü deyəndə nə olar, mənim aləmimdə Sabirin ruhu qarşısında yalan danışmaq vicdan məsələsidir !

Əslində, mayın 30-u Bakının hələ mürgülədiyi vaxtda şairin kədərli heykəli qarşısında toplaşan sabirsevərlərin USTAD deyib üzü Şamaxıya doğru dayanmaları da, vicdan və qeyrət məsələsiydi. Diksinməyin, ömrünü yabançı və yazıq intilgentlər, allah deyib şeytanlıq edən cahil mollalar yolunda şam kimi əridən insanın işıqlı xatirəsinə ehtiram duyub, onun məzarını ziyarət etməkdən ötrü saatlarla yol getməyin bundan savayı adını tanımıram.

Xalq yazıçısı, AYB sədri Anar, xalq şairləri Fikrət Qoca, Sabir Rüstəmxanlı, bədii qiraət ustası Ağalar Bayramov, şairlər Əjdər Ol, Vaqif Bəhmənli, tənqidçi dostumuz Əsəd Cahangir, yazıçı Şərif Ağayar, gənc yazarlar Qismət, Rəbiqə Nazimqızı və başqalarının təmsil olunduğu söz karvanı üzü Sabir yurduna səmt almazdan qabaq, eyninizi açmaq üçün Ağalar Bayramovun Əjdər Olla etdiyi zarafatı yazım, sonra yolçu yolunda gərək.

Əjdər müəllim şəkilcanlı olduğunu bir daha sübut edib dostlarını başına yığanda, Ağalar Bayramov fotoaparat qarşısındakı narahatçılığını çox gizlədə bilmədi. Deyəsən, may ayında ciddi böhran keçirən bədii-qiraətçi yarızarafat-yarıgerçək vəziyyətini başa salmaq istədi.

– Əjdər müəllim, şəkilin pulunu pensiyanı alandan sonra vermək olar?

## Pıçıldaşan baş daşları və ya Sabirin baxımsız məqbərəsi

Yola düşməzdən əvvəl Sabir poeziya günlərinə həsr olunmuş qovluqlar, qeyd dəftərləri, şeir broşürü və döş nişanları tədbir iştirakçılarına təqdim olundu. Qeyd eləyim ki, sözügedən məhsullar Mədəniyyət və Turizm Nazirliyi və Yazıçılar Birliyinin xüsusi sifarişi ilə hazırlanmışdı.

Nə qədər sentimental olsa da, bizi Şamaxıya aparan avtobusun qara şüşələrindən Sabirin arxada qalan qayğılı və kədərli heykəlinə baxıb düşündüm ki, illərdir soyuq daş üstündə oturmaqdan yorulan KİŞİNİN dili olsaydı onu da doğma yurdundakı evinə, məzarına aparmağımızı istərdi. Hətta bu fikiri Şamaxının yaşıl çöllərindən keçən dolanbac yollarında da başımdan çıxara bilmədim. Bir vaxtlar dostu Abbas Səhhətə yazdığı məktubunu xatırladım:

"Dünyadan, həyatımdan bezaram. Bərabər, yəqin et ki, şərən məsul olmasaydım özümü məsmum edərdim. Bir dəfəlik dünyanın əzabından xilas olardım. Lakin nə etməli, tərbiyə ibtidaiyyənin təsirindənmi, dindarlıqdanmıdır ki, buna vicdanən razı olmuram. Nə qədər cismən narahatam..."

Rayona çathaçatda havanın üzü döndü. Deyəsən, Şamaxı bizi tutqun və qaşqabaqlı ovqatda qarşılamaq niyyətindəydi. Çox çəkmədi ki, yağış yağdı. Mən yenə mistik və metafizik duyğuların təsiri altına düşərək, yolların tozunu alan yağışı arxamızca su atıb yaxşı yol arzulayan Sabirin xeyirxah işi kimi başa düşdüm. Qəribəydi, yol üstündəki qəbiristanlıqda bəlkə səfər yoldaşlarımızdan çoxunun fikir vermədiyi iki məzar daşı " baş-başa" verib elə bil ki,- bizim gəlməyimizi bir-birinin qulağına pıçıldayıb sevinirdilər.











Nə qədər ağrılı və çətin olsa da, yazmaq məcburiyyətindəyəm: Sabirin məqbərəsinə aparan yol çox bərbad vəziyyətdədir. Amma böyük avtobusun belə çətinliklə irəlilədiyi bu kələ-kötür yoldan da betərini məqbərə haqqında demək olar. Divarları qaralıb kif bağlayan kompleks-abidə bir neçə il öncə xeyriyyəçi-şair Gülağa Tənhanın vəsaiti hesabına inşa edilməyinə rəğmən, baxımsızlıq və laqeydlikdən acınacaqlı vəziyyətə düşüb. Sabir Rüstəmxanlının çıxışı zamanı məlum oldu ki, abidənin tavanından içəri su sızır. Maraqlı başqa tərəfidir, həmin gün Şamaxı rəsmilərindən kimsəni Sabirin məzarı üstündə görmədik. Əlbəttə, quruca ziyarətdən ötrü canlarını əziyyətə salmayanlar üçün Sabirin xatirəsi əziz ola bilməz. Ortada belə bir ögey münasibət varsa deməli, bir vaxtlar "arizi-qəmlər əlindən ürəyi şişən", çərləyib ölən şairin indi də məzarı zülm çəkir. Yüz il qabaq yazdığı misraları oxuyanda Sabirin nə qədər böyük və uzaqgörən insan olduğunu anlamaq o qədər də çətin deyil.

**Daş qəlbli insanları neylərdin, ilahi?!**
**Bizdə bu soyuq qanları neylərdin, ilahi?!**

Xalq yazıçısı Anar çıxışında dedi ki, Mirzə Ələkbər Sabirin xatirəsinə həsr olunmuş poeziya bayramı xalq şairi Rəsul Rzanın təşəbbüsü ilə meydana gəlib. Sonra bu işi Abbas Zamanov, Cabir Novruz, Qabil tərəfindən davam etdirilib. Hazırda Fikrət Sadıqın rəhbərlik etdiyi təşkilat komitəsinin işinə Əjdər Ol yaxından köməklik göstərir.

## " ... Ağsu vətən oldu..."

Söz karvanımızın yolu Şamaxıdan sonra Ağsudan keçirdi. Əsasnaməyə uyğun olaraq builki təntənəli mərasim rayonun poeziyasevərləri qarşısında keçirilməliydi. Ağsunun dolanbac aşırımlarından görünən göz oxşayan mənzərələri, bir-birinə duman göndərən dağları görəndə Qismətin yadına Ramiz Rövşənin misraları düşdü:

**Dağ dağa duman göndərər**
**Sevgi məktubu kimi.**

Ağsunun girişindəki yeni salınan parkda bizi rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev, millət vəkili Ərəstun Cavadov və digər rəsmilər qarşıladı. Ərəstun müəllim dedi ki, park Ağsu rayonunun ən hündür yerində salınıb. Bura istirahət üçün gələn sakinlər bütün rayonu seyr etmək imkanı qazanırlar. Ənvər Seyidəliyev Ağsuda aparılan quruculuq işlərindən meyvə şirəsi istehsal edən zavoddan, şəhidlərin xatirəsinə həsr olunmuş abidə-kompleksi haqqında məlumat verəndə Fikrət Qocanın şair Zülalidən dediyi iki misra şeir yerinə düşdü. Hiss olunurdu rayon rəhbərliyinin də ürəyincə idi.

**Qürbətdə deyirdin ki,**
**Zülali, vətənin var,**
**Ensin gözünə qarə su,**
**Ağsu vətən oldu.**

Düzdür, bu şeirin tarixçəsi haqqında Fikrət müəllimdən bir şey öyrənə bilmədim (əlbəttə, zəifliyim ucbatından ) amma " Ağsu indi doğrudan da vətən olub" deməsi onun əlahiddə razılığının ifadəsiydi.

Ağsunun mərkəzində təşkil olunan tədbirə qatılmazdan öncə Heydər Əliyev Muzeyi ilə tanış olub mərhum prezidentin heykəli qarşısına tər çiçəklər düzdük.

Bakıdan özümüzlə apardığımız qovluq, broşür və döş nişanlarını sakinlərə paylayıb qurtaranda, yeriməyə taqəti olmayan ixtiyar bir qocanın məktəbli nəvəsi üçün döş nişanı istəməsi diqqətimdən yayınmadı. Payıma düşəni qocaya verməyimdən beşcə dəqiqə sonra yaxası nişanlı bir uşağın babasının yanında sevcək hoppanıb düşməsi, mənim aləmimdə xəstəliyinin şiddətləndiyi ərəfədə kiçik yaşlı məktəblilər üçün şeirlər yazan Sabirin ruhunun sevinməsi demək idi. Mən Sabirin olan adına saygı və ehtiramın onda şahidi oldum ki, şairin yaradıcılığından nümunələr oxunan zaman insanlar astadan olsa da, onun şeirlərini əzbər deyirdilər. Vaxtilə M.Ə.Rəsulzadə nahaq yerə yazmırdı ki, Sabir "Füzulidən sonra Azərbaycanın ümum tərəfindən mənimsənmiş ikinci şairidir".

## Ev-muzeyindəki giley-güzar

Bakıya qayıdanda Şamaxıdakı evmuzeyini ziyarət etdik. 1902-ci il Şamaxı zəlzələsində Sabirin də evi uçub və bir müddət Sabirabaddakı qohumlarının yanında məskunlaşmaq məcburiyyətində qalıb. 1962-ci ildə 100 illiyi münasibəti ilə inşa olunan muzeydəki əşyaların hamısı Sabirə aid olmasa da, onun sabun bişirdiyi qazanı, istifadə etdiyi güzgünü, tütün qabını görmək səfərimizin ən yaddaqalan hadisələrindən idi. Düzünü deyim ki, bir vaxtlar bu əşyalardan Sabirin istifadə etdiyini fikirləşib yaman duyğulandım. Muzeyin mehriban və istiqanlı işçiləri bütün suallarımızı həvəslə cavablandırıb, onları yolüstü yada salmağımızdan gileyləndilər. Sən demə, onlar tədbiri ev muzeyinin qarşısında keçirilməsini gözləyirmişlər. Şərif Ağayar "Siz narahat olmayın, Sabir Azərbaycanın vicdanıdır, onu sevməyən yoxdur " deyəndə ortalığa sərin su səpildi. Sabirin ruhundan muğayat olmağı Şamaxı çöllərinin qan rəngli lalələrinə tapşırıb Bakıya yola düşdük.